**UOT:94(479.24).**

# QAZAX QƏZASI XX ƏSRİN ƏVVƏLLƏRİ

***Məmmədov İmran Rəhim oğlu***
***BDU-nun Qazax filialı***
***Memmedov201911@gmail.com***

**Xülasə:** *Bu məqalədə Qazax qəzasında (rayonunda) XX əsrin 20-30-cu illərində - Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra siyasi konyukturada baş verən dəyiəikliklər, iqtisadi-sosial, mədəni münasibətlərə təsirləri verilmiş, şərh edilmişdir. Milli və kommunust idealigiyalarının sosial-psixoloji, mənəvi mühitə təsirləri izah edilmiş, nəticəyə gəlinmişdir.*

**Açar sözlər:** azərbaycan, sovet, Qazax, qəza
**Ключевые слова:** азербайджан, Совет, Казах, дистанция
**Key words:** azerbaiydjani, Sovet, Kazakh, district

Dünyada ilk insan məskənlərindən olan zəngin tarixi keçmişə və mədəniyyətə malik Azərbaycanın bir parçası kimi hazır ki Qazax rayonu Qafqazın cənubunda, Kiçik Qafqaz dağ ətəklərinidən Kür sahili boyunca Gəncə-Qazax düzənliyinin şərq hissəsinin genişliyində yerləşir. XX əsrin əvvəllərində Qazax 1867-ci il Rusiyada Çar hökumətinin "Qafqaz diyarının idarə edilməsi haqqında" fərmanına uyğun Yelizavetpol quberniyasının Qazax distansiyası (qəzası) statusunda daxil olmuşdur. 1909-cu ildə Çar hökumətinin Qazaxa şəhər statusu verməsindən sonra Qazax şəhərində 6700 nəfər, bütövlükdə isə qəzada 130 min əhali yaşayırdı. Həmin dövrdə Ağstafa qəsəbəsi ilə birlikdə qəzanın ərazisi 5908,24 kv.km-i təşkil edirdi. 1913-cü il məlumatlarına görə Qazax qəzasında (uyezdivdə) 232 sənaye mülkləri - Şirmiyyat dükanı, 33 su dəyirmanı, 15 qırmızı kərpic zavodu, 1 ağac - tir komninatı, 1 dəri zavodu, 17 şərab - konyak zavodu, 1 pambıq və 1 sement zavodu kimi sənaye müəssisələri fəaliyyət göstərirdi. Qazax qəzası həm də münbit torpaqları olması etibarı ilə kənd təsərrüfatı üçün əlverişli sayılırdı. Ərazisinin 66.9 və ya 60 min ha-ı 1920-ci il məlumatlarına görə kənd təsərrüfatına yararlı torpaqlar hesab edilirdi ki, bunlardan 40 ha-a yaxını əkin sahələri kimi mövcud idi. Burada habelə kənd təsərrüfat bitkiləri - taxıl, kartof, üzüm, meyvə-tərəvəz, qarğıdalı, bostan, paxlalı bitkilər, yonca sahələri əkilibbecərilirdi. Qəzanın iqtisadiyyatında habelə üzümçülük, tərəvəzçilik, heyvandarlıq (iri və xırda buynuzlu heyvanlar), quşçuluq müəyyən yer tuturdu. 1918-ci il milli dövlətçiliyin bərpası ilə AXC yaradıldıqdan sonra Gəncə fəaliyyəti dövründə 30 iyul hökümət qərarı ilə Gəncə quberniyası tərkibində Qazax qəzası yaradıldı. Qazax ərazisi arxeoloji abidələri ilə eyni zamanda maddi və qeyri-maddi irsin daşıyıcısı kimi foklor paytaxtı olaraq nəzərdən keçirilir. Burada aşıq sənəti geniş yayılmış, eyni zamanda AXC-nin Azərbaycanda elmin və təhsilin inkişaf etdirilməsi məqsədilə 1918-ci ildə Qori müəllimlər seminariyasının Azərbaycan bölməsi nəzdində Qazax müəllimlər seminariyası yaradıldı və ilk direktoru F.Köçərli oldu. (Seminariya 1959-cu ilə kimi fəaliyyət göstərmişdir). Burada təhsilin ziyali potensialının elmi inkişaf etdirilməsi və dünya sisteminə qoşulması məqsədi ilə bir sıra görkəmli ziyalılar dərs deyirdi və müəllim kontingenti hazırlanaraq Azərbaycanın müxtəlif bölgələrində tədris ocaqlarının genişləndirilməsi üçün fəaliyyət göstərirdi. Mübahisəli ərazi məsələlərini həll etmək üçün 25 aprel 1919-cu ildə təşkil edilmiş Tiblis konfransında Cənubi Qafqaz dövlətləri arasında nəticə əldə edilmədiyindən iyunda konfrans öz işini dayandırdı. Son dərəcə mürəkkəb daxili və beynəlxalq münasibətdə AXC Cənubi Qafqazdakı bütün tarixi Azərbaycan torpaqlarını öz nəzarəti altında birləşdirib saxlamağa çalışırdı. 1920-ci ilin əvvəlində Paris sülh konfransına

AXC hökuməti xarixi işlər nazirliyinin təqdim etdiyi xəritədə və məlumatlar əsasında Azərbaycanın ərazilərini əks etdirən cədvəl əks olunmuşdu. Bu məlumatların Gəncə quberniyasına aid hissəsində Qazax qəzasında bir sıra torpaqlar mübahisəli ərazi kimi qeyd edilmişdi. 1918-ci ilin noyabrında isə AXC nümayəndə heyətinin Paris sülh konfransında başçısı Ə.Topçubaşovun Antanta dövlətlərinin ali şurasına Azərbaycanın sərhədləri göstərilən xüsusi memorandumda sərhədlər müəyyənləşdirilirdi. 1920-ci il yanvarın 11-də müttəfiq dövlətlərin Ali şurası Paris sülh konfransının yekun sənədlərindən biri kimi AXC-nin mövcudluğunu konkret ərazilər daxilində subyekt olaraq defakto tanımaq haqqında qərar qəbul etdi. 1920-ci il əvvəlində Qazax qəzasının idarə edilməsi üçün hökumət İ.Muradovu Qazax qubernatoru olaraq təyin etdi. 1919-cu ilin oktyabrın 13-dən isə Əmir xan Xoyski Qazax qəzasının qubernatoru olaraq təyin edildi. 1920-ci ilin əvvəllərində Azərbaycanın sərhəd bölgələrində yaranmış gərgin vəziyyəti aradan qaldırmaq üçün Əmiraslan xan Xoyski Qazaxa general qubernator kimi təyin edilərək göndərildi. Lakin aprel ayında Azərbaycanda ictimai-siyasi vəziyyətin gərginliyi ilə əlaqədar Qazaxda da gərgin daxili və sərhəd istiqamətində vəziyyət ağırlaşdı. 1920-ci ilin əvvəlində (aprel istilasına qədər) Azərbaycanda gərgin və mürəkkəb ictimai-siyasi vəziyyət yaranmışdı. Bir tərəfdə daxili əks inqilabi qüvvələr, digər tərəfdə bolşevik Rusiyası, erməni daşnak birləşmələri, menşevik Gürcüstan Azərbaycanın sərhəd bölgələrində vəziyyəti gərginləşdirirdi. Yanvarda RSFSR Xarici işlər komissarı Çeçerinin AXC xarici işlər naziri F.Xoyskiyə ünvanladığı notada müstəqil respublikaya təhtidlər ünvanlanır və Azərbaycan hökumətindən Denikinə qarşı Rusiyanın apardığı hərbi əməliyyatlara qarşı iştirak etmək tələb edilirdi. Xoyski 14 yanvar 1920-ci ildə cavab məktubunda müstəqil Azərbaycan respublikasının heç bir dövlətinin daxili işlərinə qarışmaması göstərilir və Azərbaycanın suveren hüquqlarına hörmət tələb edilirdi. Mart-aprel 1920-ci ildə Azərbaycanın daxilində antimilli qüvvələr və qiyam qaldıran erməni çeteləri Azərbaycan sərhəd bölgələrində dinc əhaliyə qarşı silahlı müdaxilələrlə qətliamlar törədir və buna görə də hökumət əsas diqqəti qərb və cənub-qərb istiqamətində sərhədlərin müdafiəsinə yönəldir və əsas etibarilə hərbçi qüvvələrin bu istiqamətə göndərilməsi ilə paytaxt Bakı demək olar ki, zəif müdafiə olunmuşdu. 1920-ci il fevralın 20-də "Hümmət" partiyasının Bolşevik qanadı, Ədalət partiyası, Əkinçi partiyası, RK(b) P-nin Bakı komitəsinin birləşməsi ilə AK(b) P yaradıldı və onun rəhbəri M.D.Hüseynov seçildi.

Qazax qəzasında bütün Azərbaycanın bölgələrində yaradılmış özək kimi AK(b) P-nin Qazax qəza partiya komitəsi yaradıldı. Ə.Qarayevin sədrliyi ilə RK(b) P-nin yanında AXC-ni devirmək və silahlı üsyan təşkil etmək məqsədilə "Operativ qərargah" yaradıldı. Bu siyasi avantürist təşkilatın tərkibində milli satqınlarla yanaşı, erməni daşnak üzvlər Azərbaycanın müxtəlif bölgələrində milli hökümətə qarşı təxribatçı, terrorçu dəstələr, xüsusi ilə fəallıq göstərirdi. Aprelin 24-də RK(b) P Qafqaz Diyar Komitəsi AK(b) P Bakı Komitəsi ilə birlikdə hərbi vəziyyət elan edərək tam döyüş hazırlığı vəziyyətinə gətirildi. Silahlı üsyana rəhbərlik döyüş qərargahına tapşırıldı. Beləliklə milli hakimiyyətin - AXC-nin devrilməsində və 11-ci işğalçı qırmızı ordunun Azərbaycan xalqına qarşı həyata keçirdiyi qətliamlarda antimilli qüvvələrin də alət olduğu AK(b) P fəal rol oynadı. 1920-ci il aprelin 26-dan 27-nə keçən gecə 11-ci qırmızı ordu müstəqil dövlətin suverenliyinə və ərazi bütövlüyünə qəsdlə Azərbaycan sərhədlərini keçərək Bakıya daxil oldu. Aprelin 27-si səhər tezdən birləşmiş daşnak-kommunist silahlı terrorçu dəstələri şəhərdə mühüm obyektləri ələ keçirdi. İşğalçı qüvvələr kommunistlərlə birlikdə Qafqaz Diyar Bakı bürosu və Konfrans adından AXC parlamentinə hakimiyyəti təhvil vermək adından ultimatum verdi. Hökümətin (M.Hacınskinin) bolşeviklərlə danışıqları nəticəsiz qaldı. Belə şəraitdə M.Y.Cəfərovun sədirliyi ilə AXC parlementinin sonuncu (145-ci) iclası aprelin 27-si axşam 20:45-dən 23:25-ə qədər davam

edərək keçirildi. M Rəsulzadənin təklifi ilə parlement binasının qapıları açıldı. O göstərirdi: "Cənablar: tarixi bir qərar millətdən bixəbər olmamalıdır. Biz xalqa xəbər vermədən qərar qəbul etməyək." M.Hacinski ultimatum barədə məlumat verdi. AK (b) P üzvləri hakimiyyəti könüllü təhvil verməyəcəkləri halda zora əl atacaqları və bütüb məsuliyyətin mövcud hakimiyyətin üzərinə düşəcəyini israrla bildirirdi. M.Rəsulzadə və onun tərəfdarları səs vermə ilə "milli qurtuluş naminə" yeganə düzgün qərar qəbul etməli oldu. Parlament milli istiqlaliyyətin qorunması; hakimiyyət orqanlarından ancaq məsul vəzifə tutanların dəyişdirilməsi; parlament və hökumət üzvlərinin şəxsi və əmlak toxunulmazlığına təminat; ordunun Bakıya döyüşlə daxil olmaması; xarici müdaxilələrə yol verməmək şərtlərinin təminatı ödəniləcəyini qəbul edən kommunistlərə hakimiyyəti təhvil verdi. Lakin işğalçı qüvvələr bu şərtlərə hadisələrin sonrakı inkişafı göstərdi ki , məhəl qoymayaraq zor tətbiq edərək fəaliyyət göstərirdi. Sovet Rusiyası beynəlxalq normaları kobudca pozaraq hərbi müdaxilə ilə Azərbaycanı yenidən işğal etdi. 28 aprel 1920-ci ildə Azərbaycanda Sovet Hakimiyyəti quruldu.

Hakimiyyət bu zaman Müvəqqəti İnqilab Komitəsinə, qanunverici orqan olan MİK-ə keçdi. Həmin il mayın əvvəlində qırmızı ordu hissələri Şamaxı və Ağsudan keçərək Azərbaycanın bir sıra bölgələrini, ölkənin qərb bölgəsini, o cümlədən Qazağı döyüşlərlə ələ keçirdi. Eyni ayda Qazax qəzasında müvəqqəti İnqilab Komitəsi yaradıldı. Şəxsi silklər ləğv edildi. Bütün torpaqlar müdasirə edilərək əvəzsiz kəndlilərə paylandı. Qəzada xalq məhkəməsi, əks inqilaba qarşı fövqəladə komissiya (ÇK) şöbəsi yaradıldı. Dinə qarşı ateizmi yayan qurum təsis edilərək, dindarlara və dini ayinlər icra edən əhaliyə qarşı qadağan edilmə kompaniyası həyata keçirildi. Savadsızlığın ləğvi istiqamətində Maarif komissarlığı yaradılaraq ibtidai icbari təhsil təsis edildi. 1920-ci ilin mayın 1-ci yarısında Sovet hakimiyyəti Naxçıvan qəzasından başqa demək olar ki, bütün Azərbaycanda Sovet hakimiyyətinin qurulmasını həyata keçirdi (Azərbaycan tarixi VII cilddə VI c səhifə 125). RSFSR mayın 5-i 1920-ci ildə hökumətə göndərdiyi teleqramda müstəqil Azərbaycan SSR-i tanımaq haqqında məlumat bildirilmişdi. Bu məqsədlə həmin ayın 9-u istirahət (bayram) günü kimi elan edildi. İnqilab Komitələrini yerlərdə daxili işlər komissarları təyin edir və komitə sədirləri yerlərə müxtəlif millətlərin nümayəndələri içərisindən göndərilir və təlimatlandırılırdı. Sovet hakimiyyətinin ilk günlərində cəza orqanları -11-ci qızıl ordunun xüsusi şöbəsi - fövqəladə komissiya Müsavat partiyasının, digər siyasi partiyaların və cərəyanların, qrupların üzvlərinə qarşı dərhal təqiblərə və siyasi repressiyalara başladılar. (baxmayaraq ki, onlarla bərabər sazişlər bağlanmışdı). N.Nərimanov 8 may 1920-ci il birinci Azərbaycan Sovetlər qurultayında göstərirdi ki, "Bolşeviklər hakimiyyəti ələ alırlar, burada bəzi sui-istifadə halları baş verir. Burada Rusiya şablonu ilə "yenidənqurma" başlayır. Şovinist ruslar və erməni daşnaklarının başçılıq etdikləri 11-ci qızıl ordunun xüsusi şöbəsi tərəfindən görkəmli ictimai xadimlər - F.Xoyski və X.Ağayev Tiflisdə, Behbud ağa Cavanşir Malta adasında, general Sulkeviç, X.Rəfibəyli, İ.Ziyadxanov, F.Köçərli vəhşicəsinə qətlə yetirildi. N.Yusifbəyli Gürcüstan sərhəddini keçərkən qarətçi quldurlar tərəfindən öldürüldü. Ə.Topçubaşov, Ə.Ağayev, A.Şeyxulislamov, C.Hacıbəyli, M.Vəkilov və b. mühacirəddə yaşamağa məcbur oldular. Sovet hakimiyyəti özünün cəza dəstələri vasitəsilə fəaliyyət göstərməkdə və əhaliyə qarşı amansız üsul və metodlarla rəftar etməyə davam edirdi. Milli qüvvələr hökümət üzvləri təqiblərə və siyasi - inzibati repressiyalara məruz qaldı. Onların bəziləri öldürüldü, bəziləri alçaldılaraq ağır işgəncələrə məruz qaldı, bir qismi isə mühacirət həyatı yaşamağa məcbur oldu. Lakin milli maraqlardan onlar əsla dönmədi və mühacirət həyatını davam etdirdi. Sovet Rusiyasının Azərbaycanda fəaliyyətləri xalq arasında bir mənalı qarşılanmırdı. Sovet hakimiyyətinin ilk günlərindən etibarən nizami daşnak dəstələri Qazax

qəzasında, Qarabağda təcavüzkar əməliyyatları genişləndirirdi. Eyni vaxtda menşevik Gürcüstan qoşunları Tiflis - Qazax yolunda körpünü ələ keçirib, Şıxlı kəndini atəşə tutdu, onların zirehli qatarı hətta Ağstafa stansiyana qədər gəlib çatmışdı. Gürcüstanda Azərbaycana qarşı fitnəkar planları və təqibləri həyata keçirmək istiqamətində bolşevik qüvvələri xeyli aktivləşmişdi. Azərbaycanın Tiflisdəki missiyası həbs olundu. Azərbaycan hökuməti Gürcüstan və Ermənistana təklif etdi ki, tutduqları əraziləri dərhal boşaltsınlar. Azərbaycan sərhədlərinin daşnak menşevik qüvvələrdən qorunması üçün Azərbaycan ordusu fəhlə - kəndli ordusu zəminində yenidən təşkil edilməyə başlandı. Aprelin 30-da Azərbaycan SSR hökuməti Gürcüstan və Ermənistan hökumətlərinə nota göndərərək onlardan qoşunlarını öz sərhədləri daxilinə çəkməyi tələb etdi. Sülh danışıqları İyunun 12-də Ağstafa stansiyasında Azərbaycan inqilab komitəsi komissar M.Hüseynov və Gürcüstan hərbi naziri arasında 18 bölmədən ibarət müqavilə ilə Arbitraj komissiyası da yaradılmasını nəzərdə tutan sənədlə başa çatdı. Azərbaycan hökuməti daşnak Ermənistanla da sülh siyasətinə çalışsa da onlar fitnəkar fəaliyyətlərini dayandırmırdı. Qərb dövlətləri xüsusi ilə İngiltərə Azərbaycana agentlər göndərərək silahla təmin edirdi. Lord Kerzon Tiflisdən məlumat bildirirdi:"Bolşevikləri Bakıdan çıxarmaq məqsədi ilə Tatarlıların (azərbaycanlıların) üsyanı onlar bizim dəstəyimizə əməl edənədək davam edəcəkdir. Biz tatarları pulla təmin etməliyik". 1800 nəfərlik Gəncə qarnizonu mayın 28-dən 29-na keçən gecə üsyan edərək şəhərin müsəlmanlar yaşayan bir neçə məhəlləsini tutdu. Üsyan yatırıldığı bir neçə günlərdə müxtəlif ictimai siyasi xadimlər - o cümlədən general mayor M.M.Qacar, gen.m. C.Şıxlinski və b. qətlə yetirildi. M.Rəsulzadə yazırdı:"İstiqlaldan bir müddət sonra artıq bütün Azərbaycan məmləkətinin müdhiş bir istilaya məruz qaldığını acı bir sürətdə dərk etmişdi. Xalq təhəmmül etmədi, üsyan etdi". Azərbaycan milli qoşun hissələrinin ana dilində komandirlik etməklə yaradılması respublika sərhədlərinin erməni-gürcü birləşmələrindən qorunması (birdəfəlik Qarabağ-Zəngəzur və mübahisəli torpaq ərazilərinin iddialarına son qoyulmasının təmin edilməsi üçün) 29 aprel 1920- ci ildə İnqilab Komitəsi qərar verdi. Lakin ordu hissələri operativ baxımdan 11-ci sovet ordusu komandanlığına tabe etdirildi. Beləliklə Partiya, Sovet, Həmkarlar İttifaqı və digər sahələrə soxulmuş şovinist millətçi S.Orcunkinski, L.Mirzoyan, A.Mikoyan kimi antimillətçi, seperatçı ünsürlər öz qulluq mövqelərindən sui istifadə edərək mərkəzin də dəstəyi ilə müstəqilliyin qorunmasına söz verdikləri Azərbaycana və azərbaycanlılara qarşı olduqca dözülməz rəftar edirdilər.

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra Qazax qəzasının dağlıq hissəsi Ermənistan və Gürcüstanla mübarizəli ərazi kimi qalırdı. 29 noyabr 1920-cı ildə Ermənistan SSR yaradıldıqdan sonra Qazax qəzası ərazisinin 44,5%i, o cümlədən 1874cü il bölgüsünə əsasən Azasu, Qaradaş, Qılınckənd, Daranin, Qalaçı, Kötikənd, Yeni Dilican, Köhnə Dilican, Karvan saray, Qaraqoyunlu, Ayrin, Küləli, Tatlı kəndləri Ermənistana verildi. Qaaax qəzası tərkibində Qazax, Ağstafa, Tovuzun xeyli hissəsi, Gədəbəyin bir hissəsi qaldı. Ermənistana verilmiş torpaqlarda Karvan saray (İcevan), Çənbərək (Krasnoselsk), Tovuz qala ( Berd-Tovuş), Dilican rayonları yaradıldı. 20-ci illərin ortalarında və ikinci yarısında qəbul edilmiş qərarlar əsasında 63min ha artıq Qazax qəzası ərazisi Gürcüstana verildi. L.Mirzoyanın Azərbaycan KP(b) MK-nin katibi işlədiyi dövrdə (1926-1929-cu illərdə) Qazax rayonundan 50 kv.km torpaq sahəsi Ermənistana verildi.

Sovet hakimiyyəti Azərbaycanda qurulduqdan sonra xalq məhkəmələri haqqında (12may 1920) dekretlə məhkəmələrdə işlərə bütün yerli dillərdə baxılmasına söz verilirdi. Daxili işlər haqqında 9 iyun dekreti ilə Azərbaycan SSR konstitusiyası hazır olana qədər respublikada ali inzibati orqan və yerlərdə inqilab komitələri inzibati idarəçiliyin həyata keçirilməsini təmin etməsi göstərilirdi. İstehsal üzərində fəhlə nəzarətini yerli orqanı-fəhlə

milisi həyata keçirilirdi. Əksinqilaba və sobotaja, möhtəkirliyə qarşı mübarizə üzrə 9 iyun 1920xi ildə fövqəladə komissiya və ali inqilib tribunalı yaradılaraq dövlət və ictimai təşkilatların fəaliyyəti nəzarətə alındı. Sənayeni, əkinçiliyi, nəqliyyatı, "xalq təsərrüfatının digər sahələrinin" tezliklə və planlı şəkildə işçi qüvvəsi ilə təmin etmək üçün 8 avqust 1920-cı ildə xalq hərbi dəniz komissarlığı üzrə "ümumi əmək mükəlləfiyyəti haqqında" əmr verildi: buna görə əhali daimi işindən asılı olmayaraq vaxtaşırı bir sıra peşələr üzrə əmək mükəlləfiyyəti yerinə yetirməyə cəlb edildi. Qazax qəzasında və digər bölgələrdə olduğu kimi partiya təşkilatı möhkəmləndirilirdi. D.Bünyadzadə, I.Müsabəyov, H.Sultanov kimi mərkəz nümayəndələri yerlərdə işləməyə göndərilirdi. Azərbaycanda ictimai-siyasi, sosial iqtisadi, mədəni həyatın bütün sahələri 1930-cu illərədək AK P deyil, AK(b) P-nin proletar diktaturası" sisteminin özəyi kimi nəinki dövlət hakimiyyətini həyata keçirməkdə RK(b) P-nin tərkib hissəsi olaraq müstəqil deyildi: Qafqaz bürosunun rəhbərliyi altında işləyir, Mərkəzin bütün göstərişləri "beynəlmiləlçik" prinsipi əsasında partiya nizamnaməsi qaydasında sözsüz icra olunurdu. 1921-cı ilin yazından Azərbaycanın bütün qəzalarından o cümlədən Qazax qəzasında sovetlərə seçkilərin təşkili və keçirilməsi kompaniyası başlandı. Ümümazərbaycan Sovetlər qurultayının çağırılması üzrə komissiya yaradıldı. Yanvarın sonunadək Bakıdan bu məqsədlə qəzalara 700 azərbaycanlı nümayəndə göndərildi. Qazax qəzasında (fövqəladə) 3lüklər və 5liklər kənd sovetlərinin təşkilinə kömək edirdilər, dinindən, milliyətindən asılı olmayaraq 18 yaşdan yuxarı həyat şəraiti qazanan şəxslərin muzdlu əməkdən istifadə etməyən kəndlilərin sovetlərə seçib seçilmək hüququ təsbit edildi. Tacirlər, din xadimləri, polis orqanları işçiləri və keçmiş əməkdaşlarının seçilmək hüququ yox idi. Aprel- may 1921-cı ildə 30minə yaxın deputatı olan 1400 kənd soveti yaradılmışdı. 1922-cı il 18-22 fevral Tiflisdə keçirilən Zaqafqaziya Komunist təşkilatlarının birinci qurultayında vahid partiya rəhbərliyində birləşməsini təmin etmək məqsədilə federasıya yaradılması reallaşdı.

3 respublika arasında ittifaq müqaviləsi Ali İqtisadi şura haqqında əsasnaməni təsdiq etdi. 1922ci il 30 dekabrda Kremlidə 1ci Ümümittifaq Sovetlər qurultayı RSFSR, Ukraniya SSR, Belarusiya SSR və ZSFRS-dən təşkil olunan SSRİ yaradıldı. 1920-ci il xalq maarif komissarı D.Bünyadzadənin imzası ilə 10 mayda ana dilində dərs keçirilən pulsuz icbari politexnik məktəblərin təşkili Texniki Peşə Təhsili komitəsi, habelə xalq təhsilinin yeni inkişaf istiqamətlərindən olan Dekretlə inqilab komitələri yanında qəza, maarif şöbələri təsis edildi: Respublikada yaşayan bütün millətlərə öz məktəb və mədəniyyət müəssisələrini yaratmaq hüququ verilirdi. (26 may 1920). 1920-1922-ci illər ərzində Gəncə, Qazax, Naxçıvan və s. Qəzalarda müəllimlər seminariyaları açıldı. Qəzalarda ərzaq vergisinin 10%-i xalq maarif komissarlığının yerli büdcələrin sərəncamına verilməsi qərarı alındı. 1924-cü ildə də Qazax qəzasında 5 yeni məktəb açıldı. Savadsızlığın ləğv edilməsi üzrə gecə kursları açıldı. 1926-cı il 7 martda Azərbaycan YTƏ (yeni türk əlifbası) komitəsi yeni əlifbanı qəbul etdi. 1920-1927-ci illərdə 65 mindən çox azərbaycanlının yarıya qədəri yeni, 11,6 mini isə əski əlifbanı öyrənməklə savadlanmışdı. Qəzalarda (o cümlədən Qazax qəzasında) partiya və ictimai-mətbuat orqanları –Gəncə quberniyası və region üçün "Yeni Gəncə" "Göyəzən"(1932), eləcədə mərkəzdə "Maarif və mədəniyyət" jurnalları, "Molla Nəsrəddin", "Şərq qadını" jurnalları nəşrə başlandı. 1924-cu ildə geniş radio şəbəkəsi sistemi ictimai siyasi və mədəni həyatda olduqca mühüm hadisə kimi 6 noyabr 1924-cü ildə efirə çıxdı. 1927-ci ildə Azərbaycan qəzalarında (Qazax qəzasında) 11 radio qurğusu, 36 səyyar radiostansiya fəaliyyət göstərirdi. 1924-cü ildə Bakıda yaradılan ateist (Allahsızlar) cəmiyyəti xalqın tarixi inanclarına, vicdan azadlığına ciddi zərbə vurdu və genişləndi. 20-ci illərdə ölkədə qadın hərəkatının başlaması ilə onların ictimai-sosial, mədəni həyatda fəallığını artırmağı nəzərdə tutaraq 1920-ci ilin mayında qadın ictimai xadimlər–Ayna Sultanova,

Xavər Qarayeva -Şabanova və b. İlk qadın klubunu yaratdılar. Bu klubun fəaliyyəti ilə Azərbaycanda qadınların mövqeyi müsbət təsirini göstərdi. Azərbaycanda elmin daha da inkişafı vahid mərkəzin yaradılmasını tələb edirdi. 1923-cü ilin əvvəlində ilk belə cəhd edildi: "Azərbaycanı tədqiq və öyrənən cəmiyyət"i yaratmaq məqsədilə xalq maarif komissarlığı komissiyasına müraciət etdi: 5 mayda nizamnaməsi təsdiq edildi, 2 noyabrda 40 nəfərdən ibarət təsis iclası keçirildi, T.Şahbazi kimi ictimai xadimlər burada iştirak edirdi. 1924-cü ildə cəmiyyət ümümittifaq türkoloji qurultayı çağırmaq haqqında qərar qəbul etdi. 1921-ci ildə Bakı ədəbiyyat mərkəzi nəzdində 1925-ci ildə isə "Gənc qızıl qələmlər ittifaqı" ədəbi təşkilatında S.Vurğun, M.Hüseyn kimi Qazax seminariyanın istedadlı üzvləri fəaliyyət göstərirdi. 20-ci illərin sonu–30-cu illərin başında kənd təsərrüfatında yaranmış böhran köklü dəyişiklikləri tələb edirdi. Stalin avtoritarizmi çıxış yolunu xırda fərdi təsərrüfatların birləşdirilməsində görürdü. Respublikada kolxozların sayı 1922-ci ilin sonunda 289-a çatırdı. Azərbaycan K(b)PMK 1924-cü il 10 dekabrda kolxoz–sovxoz quruculuğu planını Zaqafqaziya ölkə komitəsinin plenumu qərarı əsasında qəbul etdi. 1 fevral 1930-cu ildə SSRİ MİK və XKS kütləvi kollektivləşmə rayonlarında kənd təsərrüfatının yenidən qurulması və qolçomaqlar əla mübarizə tədbirləri haqqında qərar qəbul etdi. Torpaq icarəsi və muzdlu saxlama hüququ torpaq sahiblərindən (qolçomaqlardan) kolxoz və sovxozlara verildi. Orta, varlı təsərrüfat sahiblərindən zorla alınan və kəsilən əmtəə və vasitələr nəticəsində mal-qaranın və məhsulun miqdarı həmin illərdə yarlbəyarı aşağı düşdü və bu sistem istənilən nəticəni yalnız inzibati metodlarla baş verdiyi üçün vermədi. 1926-ci il SSRİ əhalisinin siyahıya alınmasına görə Qazax şəhərində 6,767 nəfər yaşayırdı. Qazax qəzası əhalisinin etnik tərkibinə Azərbaycan türklərindən başqa müxtəlif etnik tərkiblər–ruslar, ukraniyalılar, belaruslar, gürcülər, yunanlar, polyaklar, avarlar, litvalılar, almanlar, tatlar, kürdlər daxil idi. Ümümilikdə bu tərkib 10 minin üzərində hesablana bilinərdi. 1928-1929-1932-1933-cü illərdə sənayenin sürətli və üstün istiqamətlərini əhatə etməli olan ÜİK(b)P-nin 5-ci qurultayı direktivlərinə uyğun birinci 5 illik plan aprel 1929-cu ildə XVI partiya konfransında qəbul edilərək yerli partiya təşkilatlarına icra üçün göstərişlər verildi: milli respublikalarda iqtisadiyyat və mədəniyyətin əsas inkişaf istiqamətləri müəyyən edilmişdi. (6-11 may 1929-cu ildə 5-ci Zaqafqaziya Sovetlər qurultayında təsdiq edildi. Ucqar rayonlarda iqtisadiyyat və mədəniyyətin inkişafının zəruriliyi ittifaqın ehtiyac və tələbləri ilə uyğunlaşdırılması nəzərdə tutulurdu: AXTŞ tabeliyində olan sənayeyə cəmi 66,9 milyon rubl ayrılmışdı. Xalq təsərrüfatında çalışan işçilərin sayı 175 min nəfərdən 325 min nəfərədək artdı. Lakin bu statistik hesablamalar dövlətin əmək qabiliyyətli insanlarını inzibati idarə etmə nəticəsində icbari hesabına, hesabatlılığın olmaması ilə təzahür edirdi. 1929-cu ilin sonu 1930-cu ilin avqustun 8-də inzibati ərazi dəyişiklikləri ilə Qazax qəzası ləğv edilərək Qazax rayonu yaradıldı. Yeni rayonlaşdırma əhalini dövlət aparatı ilə yaxınlaşdırmağı, dövlət quruculuğuna daha fəal cəlb etməni sözdə nəzərdə tuturdu. 30-cu illərdə Azərbaycan ədəbiyyatının ön cərgələrində O.Sarıvəlli, M.Dilbazi, N.Hüseyn ("Tərlan"), Mir Cəlal Paşayevin "Bir gəncin manifesti", E.İbrahimovun ("Həyat"), Səməd Vurğunun 38-ci ildə tamamladığı "Vafiq" piesinin tamaşaya qoyulması, "Xanlar", "Fərhad və Şirin" əsərləri kommunizim idealogiyası və sovet sistemi quruluşu şəraitində ideologiya çərçivə İlə məhdudlaşsa da samballı yaradıcılıq fəaliyyətinin nəticəsi idi. Azərbaycan ictimai siyasi həyatında ciddi sıçrayışlar doğuran mühüm hadisələrdən biri SSRİ-nin yeni konstitusiyasının qəbul edilməsi idi. SSRİ Ali rəhbərliyi artıq ölkənin qarşısına qoyulmuş sosializim quruculuğunun birinci mərhələsini (SSRİ-də sosializmin tam qələbəsini) başa çatmış hesab edərək artıq qəti qələbə uğrunda şüarla çıxış edirdi. "Stalin konstitusiya" adlandırılan SSRİ konstitusiyası 5 ay yarım xalqın müzakirəsinə verilərək "dünyanın ən demokratik ölkəsinin fəaliyyət sənəti olaraq fövqəladə

9-cu Ümumazərbaycan Sovetlər qurultayı tərəfindən lahiyənin bəyənilməsi ilə 30 dekabr 1936-cı il fövqəladə Ümumittifaq Sovetlər qurultayı tərəfindən "yekdilliklə bəyənilmişdi". M.Bağırov 1937-ci il mayda XII Bakı partiya konfransında H.Sultanov, S.Əfəndiyev və s. "Qocaman" partiya üzvlərinin ideyaca burjua millətçiliyində təqsirləndirərək darmadağın etdi. Onların içərinizdə görkəmli ictimai, mədəniyyət xadimləri–S.Əfəndiyev, M.İsrafilbəyov, H.Cavid, M.Müşviq, B. Talıblı, V.Xuluflu və b. var idi. Ümumiyyətlə 1937-ci ildə Azərbaycanda "xalq düşməni" kimi 29 min nəfər güllələnmiş və ya Sibirə sürgün edilmişdi. 1939-cu ildə "planlı", "Stalin modeli"ni həyata keçirmək üçün ÜİK(b)P mart 1934-39-cu ildə SSRİ xalq təsərrüfatı inkişafına dair III 5 illik plan 1938-1942-ci illərə aid qəbul edildi. Əməkdə fərqlənməyə görə 1938-ci ildə "sosialist əməyi qəhrəmanı" ali mükafatı təsis edildi. Qazax rayonununda əməkçilərin səyi ilə suvarma arxları çəkildi. Çayçılıq və digər sitrus bitkiləri təsərrüfatı təşkil edildi. Azərbaycanın tədricən pambıqdan sonra yeni sitrus bitkiləri bazasına çevrildi. Dövlət büdcəsinin gəliri 1937-ci ilə nisbətən 13,1% artaraq 1939-cu ildə 995,3 milyon manatı təşkil etdi. Malyariyaya qarşı mübarizə məqsədilə Gəncə-Qazax xalq səhiyyə komissarlığının nümayəndəliyi yaradıldı. IX Azərbaycan Sovetlər qurultayı (14 may 1937) yeni konstitusiyanı qəbul etdi. Ümumi, bərabər, gizli səsvermə hüququ təsbiq edildi. Mürəkkəb hərbi təhlükə şəraitində öz müdafiəsini təmin etmək üçün ciddi hərbi hazırlıq tədbirləri görülməsinə başlandı. Bütün istehsal və kənd təsərrüfatının ciddi əmək intizamı və dövlət inihisar nəzarəti şəraitində həyata keçirilməsi prosesi reallaşdı.

**_Ədəbiyyat_**


1. Azərbaycan Respublikası Dövlət arxivi, f.275.səh.248-375
2. Az. tarixi VII cilddə, VI c.s. 7-359
3. Azərb.Milli Ensiklopediyası, 25c.B.2007
4. 4. H.Kissi ncer."Diplimatiya" (ingiliscədən rus dilinə çevirmə) M.2018 (rus.d)
5. Azərb. Demokratik Respublikası (1918-1920) sənədlər və materrallar 1998
6. Azərbaycan respublikası Dövlət Arxivi.f.25.1c.iş 227
7. T.Əzizov "Azərbaycan XX əsrin əvvələrində B.1997
8. Xudiyev S.Əmiraslanova F. "İtirilmiş torpaqlar, itirilmiş sərvətlər" B.1998
9. İ.Hacıyev "İtirilmiş Azərbaycan torpaqları" "Təfəkkür" 11N3 (9), 2015

M.Ə.Rəsulzadə "Azər.Cumhur. Keyfiyyəti təşəkkülü və indiki vəziyyəti (İstanbul 1990. S.51)

10.AXC Parlamenti (stenoqrafik hesabtlar) 11 kitab Bakı Baş Arxiv İdarəsi 1998 səh 992


**КАЗАХСКАЯ ГУБЕРНИЯ В НАЧАЛЕ XX-го ВЕКА**

**_Мамедов Имран Рагим оглы_**

**_Резюме_**

В данной статье даются и комментируются изменения политической ситуации в Газахском уезде (районе) в 20-30-е годы XX века - после установления советской власти в Азербайджане, влияние на экономические, социальные и культурные отношения. Были объяснены и сделаны выводы о влиянии национальной и коммунистической идеологий на социально-психологическую и духовную среду.

**GAZAKH PROUINCE IN THE BEGIUNING OF THE XX CENTURY**

**_Mammadov Imran Rahim_**

**_Summary_**

This article gives and comments on the changes in the political situation in the Gazakh district (region) in the 20-30s of the XX century - after the establishment of the Soviet

government in Azerbaijan, the impact on economic, social and cultural relations. The effects of national and communist ideologies on the socio-psychological and spiritual environment were explained and concluded.

***Rəyçi: t.ü.f.d. Allahverdiyeva G.***
***İctimai və təbiət elmləri kafedrasının 18 oktyabr 2022-ci il tarixli iclasın 05 saylı protokolu***
***Daxil olma tarixi 26 oktyabr 2022-ci il***

**UOT:94.**

## XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ TÜRKÜSTANDA RUŞLAŞDIRMA SİYASƏTİNƏ QARŞI ZİYALILARIN "CƏDİDÇİLİK" HƏRƏKATI

***Əliyeva Təhminə Yasin qızı***
***Azərbaycan Dövlət Pedaqoji Universitetin Quba filialı***
***tehmine.eliyeva@quba.adpu.edu.az***

***Xülasə:*** *Cədidçilik İsmayıl bəy Qaspiranlının öndərliyi ilə inkişaf etmişdir. Bu hərəkat XIX əsrin sonu XX əsrin əvvvələrində Rusiya imperiyasının əsasən türk mənşəli müsəlman xalqları arasında təşəkkül tapan ictimai-siyasi və intelektual hərəkat idi. İsmayıl bəy hərəkata yeni üsulda təhsil verən məktəblər açaraq başladı, daha sonra Tərcüman qəzetini çıxartdı. Hərəkat liderləri 1905-ci ildə Rus istilasından sonra ortaya çıxan siyasi fəaliiyyətdə aktiv rol aldılar. Türküstanda cədidçilik hərəkatı ilə özünü göstərmiş, yeni metodla çalışan bölgədəki türk mətbuatıda da tövhəsini vermişdir. İsmayıl bəy Qaspiranlının, Türk xalqlarının "dildə fikirdə və işdə birlik" inteqrasiya məqsədi daşıyan fikri müsəlman türk biriklərinin milli süarını qazanmasında, Türk millətçiliyinin inkişafında və bu ölkədə yaşayan xalqların haqq axtariş mübarizəsində yerinə yetirmişdir. Məqalədə Çədidçilik hərəkatının necə və hansı şərtlərlə ortaya çıxdığı araşdırılmışdır. Cədidçilərin nəşr edikləri qəzet və jurnallar, məqsəd və məzunları, özünəməxsus xüsusiyyətləri və xarekterinə geniş yer ayrılmışdır. Cədidçilərin qarşısında duran Qədimçilərin anti təbliğat işləri, Çar rusiyasının cədidçilərin qarşısını almaq üçün yertidiyi təziqlərdən bəhs olunmuşdur.*

**Açar sözlər**: Çədidçilik, milli azadlıq hərəkatı, məktəb, ziyalı, qəzet, jurnal, Türküstan
**Key Words:** Chasidism, national liberation movement, school, newspaper, magazine, intelligent, Turkistan
**Ключевые слова:** Модернизм, национально-освободительное движение, школа, интеллигенция, газета, журнал, Туркестан

Cədidizim hərəkatı türk milli süurun inkişafı və türk xalalarının müstəqillik mübarizəsinə əhəmiyyətli fikri təsiri olmuş bir hərəkat olaraq xarekterizə edilə bilər. XIX əsrin sonu XX əsrin əvvvələrində Rusiya imperiyasının əsasən türk mənşəli müsəlman xalqları arasında təşəkkül tapan ictimai-siyasi və intelektual hərəkat idi. XIX əsrin 80-ci illərində Krım. Qazan və həmçinin Azərbaycanda 90-ci illərdə isə Orta Asiyada yayılmışdır. [1, s.19] Əvvəllər köhnə müsəlman təhsil sistemini dəyişdirmək və müsəlman üçün Avropa təhsilinin zəruriliyi, islamın və dini məktəblərin məhdud islahatı, islamın milli burjuazıyasının tələblərinə uyğunlaşdırılması xeyrinə çıxış edirdilər.

Türküstan milli hərəkatına təsir edən, yeni cəmiyyətin tələbatına cavab verən siyasi liderlər deyil, ziyalıllar oldu. Dəyişmə mübarizəsi davamlı uduzmaya uğrayan əsgəri sahədən